Pərviz AXUND

# BİR ƏLÇİM XATİRƏ



Hərdən adama elə gəlir ki, uzun illər öncə baş vermiş hadisələrin üzərindən o qədər də çox vaxt keçməyib. 30 il az vaxt deyil, amma uzun bir müddət də sayılmaz. Zaman bizi həmişə yanıldır. Gələcək uzaq mənzil kimi görünür. Həmin gələcəyə çatıb, onu keçmişə yolladıqda sanki dünən yaşanmış kimi xatırlayırıq. Nəzərimizdə gələcək uzaqda, keçmiş isə yaxındadır. Çünkü biz keçmişi artıq yaşamışıq, yaxşı-yaman üzərindən aşıb keçə bilmişik. Amma gələcəyə dair heç bir fikrimiz yoxdur. Varsa da, əmin ola bilmirik, yalnız təxmin etmək olar. Gələcək bizə yaddır və bizə yad olan nə varsa, həmişə uzaq görünür.

Qarabağ Azərbaycan insanı üçün bütün zamanların şah damarıdır. Qarabağ nə keçmişdi, nə gələcək. O, bir sonsuzluqdur bizim üçün. Qarabağ zamanın və məkanın ötəsində bir qavrama çevrilib artıq. Torpaqlarımızın haçansa geri alınacağına ümid etsək də, çoxumuz düzünürdük ki, o xoş gün bizdən sonrakı nəsillərə qaldı. Bu səbəbdən, yuxarıdakı fikrimə qüvvət olaraq deyim ki, bəzən məkan baxımından çox uzaq göründü o torpaqlar.

Zaman elə gətirdi ki, laçınlı da, kəlbəcərli də, zəngilanlı da özünü qarabağlı hesab etməyə başladı. Düşmən qarabağətrafı rayonları Qarabağın təhlükəsizlik zonası adı altında işğal edəndə o ərazilərin insanlarının dərdi, həsrəti ümumiləşdi və Qarabağ yarasına çevrildi. Tək o insanlar deyil, bütün Azərbaycanın və dünya azərbaycanlılarının tək dərdi oldu Qarabağ.

Biz laçından köçəndə mənim beş yaşım vardı. Sovet hökumətinin son, müstəqilliyin isə ilk illərinə təsadüf etmişdi uşaqlığım. Oynamaqdan, dəcəllik etməkdən başqa heç bir dərdi olmayan uşağa ata yurdunu tərk etmək, o qapıdan o biri qapıya pənah aparmaq elə də təsir edə bilmzədi. Əksinə, o yaşda uşaq üçün köç maşınlarının üstündə səfərə çıxmaq əyləncəli görünə bilərdi. Biz sonralar anlayacaqdıq ki, yuvasını dimdiyində daşıyan quş misalı atamız və anamız köçümüzü neçə-neçə ünvana necə təlaşla daşıyıb. Durduğun yerdə, günün günorta çağı minbir əziyyətlə qurduğun, hər daşına alın təri tökdüyün təmtəraqlı evindən məcburən qaçıb, uçuq-sökük daxmalara sığınmaq, üç gün orda, beş gün burda köçəri həyat yaşamaq – bunları indiki yaşımda təsəvvürümə gətirəndə dəhşətə gəlirəm. Yurdumuzun hər yanı doğmadır, amma ocaq bambaşqa bir nəsnədir. Qaçqınçılığın ən ağr mənəvi-psixoloji təsiri daha çox qaçqın uşaqlarının üzərində hiss olunurdu. Onlar böyüdükcə yaşadıqları qarğı-qamış daxmalarda min türlü qayğının, ehtiyacın onları necə çulğadığını öz gözləriylə gördülər. Bütün bunların fonunda böyüməkdə olan qaçqın uşaqlarına havayı verilən bir “sovqat” vardı: "Travma!" O hadisələrin başımıza gəlməsindən xeyli vaxt keçib. Hətta bir çox yaralarımız qaysaq

bağlayıb, daha bizi incitmir. Torpaqlarımıza qədəm basdığımız ilk gün, inanıram ki, olan-qalan dərdimiz də yox olub gedəcək. Şübhəsiz ki, gözəl günlər görəcəyik. O "travma" isə heç vaxt yaddaşımızdan silinməyəcək. Çünki məhz odur uşaqlığımızı əlimizdən zorla dartıb alan...

44 günlük müharibədə qalib gəldik. Bu qalibiyyət hər üç cəbhədə – hərbi, siyasi və informasiya cəbhələrində əzmlə mübarizə aparmağımızın sayəsində baş tutdu. İqtidarından tutmuş, müxalifətinə qədər hər kəs birləşdi və dəmir yumruğa çevrildi. Bu müharibənin, əslində, 44 gün yox, 33 ildir davam etdiyi hər kəsə bəllidir. İstər buna soyuq müharibə deyin, istər atəşkəsin pozulması deyin. Nəticədə bu və ya başqa şəkildə düşmən yaxamızdan düşmədi ki düşmədi. Məhz 1987-ci ildən ermənilər təxribat törətmiş, etnik təmizləmə prosesinə başlamışlar. Dünyaya göz açar-açmaz mənim və yaşıdlarımın taleyinə didərginlik yazılıbmış.

2020-ci ilin 27 sentyabrından başlayan Vətən müharibəsində mənfur qonşuya başa saldıq ki, gözəl ölkəmizin ərazisinə soxulub "ikinci hayastan" qondara bilməzsiniz. Gec oldu, amma güc oldu. Biz elə bir coğrafiyadayıq ki, burda son dərəcə siyasi iradə nümayiş etdirməsən – bura iqtisadi və mədəni əlaqələr də daxildir – göz görə-görə haqqını çeynəyərlər, üstəlik, üstündən su da içərlər.

İndi dağlar bizimdir, göy yaylaqlar, buz bulaqlar bizimdir. İndi bizik o yerlərin ağası. Hərdən bütün olanlar mənə möcüzə kimi gəlir. Yəni doğrudanmı bu günə-sabaha doğma Laçına, Qarakeçdi kəndinə gedə biləcəm?.. Doğrudanmı ulu babam Molla Mikayılın yurdunda ev-eşik qurub yaşaya biləcəm, uşaqlarıma göstərib: "Bax, bu pilləkən Mikayıl babamızın evinin pilləkənidir, atam o vaxt evi sökdürüb kənardan yenisini tikdirmişdi. Bax, burda darvazamız vardı. O tərəfdə kəndin idarəsi vardı, atam orda işləyirdi, Kənd sovetinin katibi idi. Burda – evimizin lap yaxınlığında təzə məktəb binası tikilmişdi. Bir dəfə qardaşımla bacım məktəbə gedəndə mən də onlara qoşulub getdim. Müəllimlər başımı sığalladılar, mənə gözəl sözlər dedilər..."

Çox sonralar uşaqlarıma deyəcəm ki, bala, çox şeyi də xatırlamıram, yadımda deyil. Bu kənddə nə ömür sürdüm ki... Xəstəxananın yanındakı transformatoru hələ də xatırlayıram. Evdə "Laçın" sözünü eşidəndə elə bilirdim ki, söhbət transformatordan gedir. Elə bilirdim ki, Laçın odur. O dərəcədə uşaq idim...

Bir qohumun sünnət toyu yadımdadır. Kəndimizdə bir seyid vardı, Ağcəbədidən idi. Hər yay babamgilin qonşuluğunda çadır qurub ailəlikcə ora köçürdü. Uşaqlarla zarafat eləməyi xoşlayırdı. Sünnət toyunun ortasında əlinə qayçı alıb bizə tərəf çığırırdı: "Ə, sizi də kəsəcəm, qaçmayın. Biz bir neçə uşaq qaçıb babamgilin itinin damına girdik. İt də damda idi. Ondan çox qorxurdum. Amma o anda seyid daha qorxulu görünürdü.

Toylarda ən çox yadımda qalan adamların ayaqlarıydı. Öz boyumun tuşunda gördüklərim yadımdadır. Hə, bir də Ədalət əmim vardı; bülbül cəh-cəhli, Koroğlu nəfəsli aşıq Ədalət. Toylarda əmim aşıq Umbayla gərdiş edərdi, zəngulələrindən qulaq batardı.

Bir toyda mağarın ortasında durub heyranlıqla Ədalət əmimə baxırdım. Yanımdan ley kimi o yana-bu yana şığıyır, çaldığı havaya uyğun rəqs hərəkətləri edirdi. Birdən mənə yavaşca bir təpik ilişdirib gülə-gülə dedi:

– Ə, köpəkoğlu, ayaq altında dolaşma.

O, əslində, əmim oğlu idi. Atamla yaşdaş olduğu üçüb əmi deyirdik. 92-nin yanvarında 33 yaşında şəkər xəstəliyindən vəfat etdi. Onun ölümü nəslimiz, kəndimiz üçün ağır itki oldu...

Bilmirəm, kəndə qayıdanda əvvəlki kimi yaşaya biləcəyikmi, yoxsa yox. Kimlər getdi, kimlər qaldı. Torpaq insanlarına görə doğmadır. Hətta ata ocağın olsa belə... O insanlar yoxdursa, oranın bir anlamı qalmır, qalmır... Hələ bilmirəm. Çünki yalnız bircə dəfə qaçqınlıq görmüşəm və yalnız birinci dəfədir ki, yurdum geri alınıb. Tərk edilmiş yurda yenidən qayıtmağın necə bir duyğu olduğunu həmin gün gələndə biləcəm. Bütün hallarda insana öz yurd-yuvasından daha əziz heç yer ola bilməz. Xüsusən də o yerlərlə bağlı xatirələrin varsa...

Hələ nələri xatırlayıram: anamın hanası, Qədəm mamagilin evi, Rəşid əmimin avtobusu, Umbay əmimin həyətindəki iri daş, babamgilin aynəbəndi, Balay dayımın sənəyi başına çəkib su içməsi...

Qayıdış gününü səbirsizliklə gözləməyimin səbəbi həm də odur ki, xatirələrimlə şəxsən yerində görüşəcəyəm...